

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# Şərq qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 102 (21.254)

23 may 2015-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 22-də Böyükşor gölünün bərpası layihəsinin birinci mərhələsi çərçivəsində görülmüş işlərlə tanış olublar.

Dövlətimizin başçısı və xanımı göl sahilində salınmış Böyükşor bulvarının və parkının açılışında iştirak ediblər.

Azərbaycan Prezidenti və xanımı əvvəlcə Böyükşor gölünün bərpasının ilkin mərhələsi çərçivəsində görülmüş işlərə dair stendə baxdılar.

İqtisadiyyat və Sənaye naziri Şahin Mustafayev Böyükşor gölünün bərpasının birinci mərhələsi çərçivəsində görülən işlər barədə dövlətimizin başçısına ətraflı məlumat verdi.

Sonra Prezident İlham Əliyev Böyükşor bulvarının və parkının rəmzi açılışını bildirən lenti kəsdi.

Bildirildi ki, sahilboyu gəzinti zolağının uzunluğu 2,5 kilometr, bulvar sahəsinin ümumi eni isə 94 metrdir. Burada idman və uşaq oyun meydançaları qurulub, ayrıca qaçış və velosiped zolaqları salınıb, minlərlə ağac və bəzək kolu əkilib. Gölün içində quraşdırılmış fəvvarələr kompleksi şəhərimizin qonaqlarının zövqünü oxşamaqla yanaşı, həm də gölün suyunun keyfiyyətinin yaxşılaşdırılması üçün onu oksigenlə zənginləşdirir.



## Bakı-Tbilisi-Ceyhan: Əfsanədən reallığa

Xalqımızın ümummilli lideri Heydər Əliyev "Əsrin müqaviləsi"nin imzalanmasına nail olmaqla dünya siyasətçiləri arasında böyük zəkaya və nüfuza malik olduğunu bir daha təsdiqləmişdir. Məhz ulu öndərin uzaqgörənliklə atdığı bu addım nəticəsində dünyanın ən böyük enerji layihəsi olan, regional müstəvidən çıxaraq beynəlxalq əhəmiyyət daşıyan, ilk mərhələdə çoxlarına xəyal kimi görünən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşası reallaşdırılmışdır. İstifadəyə verildiyi dövrdən keçən müddətdə özünü dəfələrlə doğrultdan bu layihə ulu öndər Heydər Əliyev dühasının xalqımızın xoşbəxt gələcəyinə ərməğan etdiyi bir əsər kimi hələ neçə əsrlər bundan sonra da öz əhəmiyyətini qoruyub saxlayacaqdır.

Azərbaycanın yeraltı təbii sərvətləri, qiymətli neft yataqları yüz illər öncəsindən Bakıya gəlmiş iri sahibkarların sərvətini artırmış, xalqların müqəddəratının həll olunduğu cahan müharibələrində gen-bol istifadə olunmuşdur. Lakin XX əsrin sonlarında dünyada gedən mürəkkəb proseslər, müstəqillik və yeni siyasi qütbləşmə cərəyanları bir anda diqqətləri yenidən Azərbaycana çevirdi. O dövrdə bütün dünya yenidən müstəqilliyinə qovuşmuş bu gənc respublikanın atacağı addımı, onun yürüdəcəyi enerji strategiyasının nə olacağını maraqla izləyirdi. İndi həmin tarixə qısa bir nəzər salanda, o dövrün mürəkkəb siyasi, sosial-iqtisadi və hərbi vəziyyəti şəraitində ölkəmizin gələcək enerji strategiyasını müəyyən etmiş qərarların hansı çətin seçimlər qarşısında verildiyini görmək mümkündür. Bu baxımdan 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi"ndən başlayaraq ölkəmizin son illərdə qoşulduğu TANAP, TAP və digər iri enerji layihələrinin icrasınadək keçən yolda Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin region üçün həm iqtisadi, həm siyasi, həm də etibarlı əməkdaşlıq perspektivləri son dərəcə açıq görünməkdədir.

Məhz bu tarixi addımla Azərbaycanın müstəqil bir dövlət kimi öz sərvətlərinə tam sahib olduğu bütün dünyaya nümayiş etdirildi. "Əsrin müqaviləsi"nin imzalanmasına həsr olunmuş təntənəli mərasimdə çıxış edən ulu öndər Heydər Əliyev bu barədə demişdir: ***"Biz belə bir addım atmaqla Azərbaycanın dünya üçün, dünya iqtisadiyyatı üçün açıq ölkə olduğunu nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın tam müstəqil olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yaradırıq... Biz bu müqaviləni imzalamaqla xarici ölkələrdən Azərbaycana investisiya qoyulması üçün böyük yol açırıq".***

10 il əvvəl – 2005-ci il mayın 25-də kəmərin Azərbaycan ərazisindən keçən hissəsinin istifadəyə verilməsi və Səngəçal terminalından boru xəttinə ilk xam neftin vurulmasından keçən dövr göstərir ki, bu unikal layihənin həyata keçirilməsi üçün verilmiş müdrik tarixi qərar bölgənin iqtisadi inkişafı və siyasi sabitliyi üçün nə qədər vacib olmuşdur. Bu gün dünyanın bir sıra dövlətləri arasında reallaşdırılmasına cəhdlər göstərilən enerji layihələrinə, müxtəlif uğursuz əməkdaşlıq təşəbbüslərinə nəzər saldıqda Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşasının uğurla başa çatmasına bir möcüzə kimi baxa bilərik. Lakin çoxlarının əfsanə kimi baxdığı bu layihə artıq möcüzə deyil, real fəaliyyət göstərən, bütün təzyiqlərə baxmayaraq, iqtisadi cəhətdən rentabelli, ekoloji cəhətdən təmiz, texnoloji cəhətdən təhlükəsiz boru xətti kimi fəaliyyət göstərir. Bu kəmərin inşası sübut etdi ki, xalqlar arasında qarşılıqlı inam, dövlətlər arasında sıx əməkdaşlıq və dövləti idarə edən liderin tərəqqiyə yönəlmiş iradəsi olduqda istənilən çətin işi görüb başa çatdırmaq mümkündür.

Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəməri təkcə dəyəri 4 milyard ABŞ dolları olan bir tikinti deyildir. Bütün alternativ iqtisadi, ekoloji və təhlükəsiz neft daşınması prioritetləri baxımından qiymətləndirdikdə bu beynəlxalq neft kəmərinin kommersiya dəyərindən daha qiymətli cəhətlərini hesablamaq mümkündür. Məhz bu layihə onun ideya müəllifi olan Azərbaycan Respublikası ilə yanaşı, kəmərin keçdiyi Gürcüstan və Türkiyə respublikalarının enerji təhlükəsizliyi, iqtisadi inkişafı, hətta yüksəkkeyfiyyətli Bakı nefti əldə edən neft istehlakçılarının maraqları baxımından da mühüm əhəmiyyət daşıyır.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin fəaliyyətə başlaması ilə on minlərlə yeni daimi iş yerləri yaradıldı. Bütün bunlar layihənin milyonlarla insanın həyatında hansı təsir gücünə malik olduğunu göstərməkdədir. İxrac olunan neftdən əldə olunan gəlirlər isə başda bu qiymətli sərvətin sahibi olan Azərbaycan dövlətinin, eləcə də layihənin ortaqları olan şirkətlərin iqtisadi mənafelərinə, xalqımızın milli maraqlarına öz töhfəsini verdi. Həmçinin Bakı-Tbilisi-Ceyhan kəməri ilə ixrac olunan neftdən əldə olunan gəlir ölkəmizdə bank, sığorta, tikinti, nəqliyyat, yeni texnologiyaların tətbiqi və turizm sahəsində geniş perspektivlər açdı, region ölkələri arasında bunun kimi irimiqyaslı digər layihələrin həyata keçirilməsi üçün mühüm təcrübə qazanıldı və böyük investisiya axını yarandı. Kəmərin tikintisi və istismarı dövründə təkcə bir sahədən – biznes adamlarının, mühəndislərin, işçilərin ölkələr arasındakı işgüzar hərəkəti ilə yaranan turizm münasibətlərindən nə qədər əlavə gəlir formalaşdığını təsəvvür etmək çətin deyildir.

Bu gün Azərbaycanın enerji sahəsində əldə etdiyi inkişaf birbaşa ölkə əhalisinin rifahına xidmət edir. Layihədən əldə olunan gəlirlər ölkəmizdə qeyri-neft sektorunun inkişafına və əhalinin sosial müdafiəsinin gücləndirilməsinə yönəldilir. Azərbaycanda regionların inkişafı üzrə bir-birinin ardınca uğurla həyata keçirilən müxtəlif dövlət proqramları, ölkənin hər yerində tikilən yüzlərlə və minlərlə elm, təhsil, səhiyyə, mədəniyyət, turizm və idman infrastrukturu obyektləri, çəkilən yeni yollar, abadlaşdırılan kənd və qəsəbələr, qeyri-neft sektoru üzrə istifadəyə verilən istehsal sahələri bu gün ümummilli liderimiz Heydər Əliyevin ideya müəllifi olduğu, ulu öndərimizin adını daşıyan nəhəng Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəmərinin tikintisi üçün ortaya qoyulmuş siyasi iradənin davamı ilə mümkün olmuşdur.

1990-cı illərin ağır şəraitində ölkəmizə edilən təzyiqlərə baxmayaraq, qətiyyətli addım ataraq neft strategiyasını müdrikliklə həyata keçirən ümummilli liderimizin siyasi xətti bu gün uğurla davam etdirilir. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsi ilə reallaşan və ulu öndərin bir neçə onilliklərə hesablanan neft strategiyasının uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan dünya birliyində siyasi, iqtisadi inkişafı, qlobal hadisələrə təsir imkanları artan qüdrətli dövlət kimi tanınır, ölkəmizin beynəlxalq əməkdaşlıq arenasında etibarı daha da möhkəmlənir.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin uğurlu icrası onu da göstərdi ki, Azərbaycan heç kimdən asılı olmadan öz milli maraqları naminə bütün mümkün alternativləri seçmək gücündədir. Ölkə başçısı cənab İlham Əliyevin dediyi kimi: ***"Azərbaycan nefti, Azərbaycanın təbii sərvətləri Azərbaycan xalqının xidmətindədir və bu əsas məqsəddir".***

**"Şərq qapısı"**

## Naxçıvan Dövlət Universiteti ilə AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutu arasında anlaşma memorandumu imzalanıb

Dünən memorandum imzalanmazdan əvvəl çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov müqavilənin Naxçıvan Dövlət Universiteti ilə AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutu arasında əlaqələrin möhkəmlənməsinə əlverişli şərait yaradacağını və elmi layihələrin həyata keçirilməsinə təkan verəcəyini bildirib.

AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru, aqrar elmlər doktoru, professor Əlövsət Quliyev qeyd edib ki, Torpaqşünaslıq və Aqrokimya İnstitutu aqrokimyəvi tədqiqatlar apararaq son nəticələrin tətbiqini istehsalata yönəldir. Bu nəticələr kənd təsərrüfatının müxtəlif sahələrində şoranlaşmaya və irriqasiya eroziyasına qarşı mübarizə yollarına, torpaqda münbitliyin bərpasına, gübrənin norma əsasında verilməsinə, nəticə etibarilə, ekoloji təmiz kənd təsərrüfatı məhsullarının alınmasına xidmət edir. Bu gün AMEA-nın "elm-təhsil-istehsalat" və ya "təhsil-elm-istehsalat" prinsipinə əsaslanaraq fəaliyyətini qurması ölkənin ərzaq ehtiyatının artırılmasına köməklik göstərir. Bizim məqsədimiz Naxçıvan Dövlət Universiteti ilə əməkdaşlıq edib, yüksək dərəcəli elmi kadrların tədrisə cəlb olunmasına, magistrantların AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunun bazasından yararlanmağa şərait yaratmaqdır.

Sonra Naxçıvan Dövlət Universiteti və AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutu arasında kadr hazırlığı, elmi-tədqiqat və istehsalatın elmi əsaslarla təşkili sahəsində ümumi maraqlara əsaslanaraq əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.

Qeyd edək ki, imzalanmış memorandumda torpaqşünaslıq, aqrokimya və ekologiya elmlərinin qarşılıqlı maraqdoğuran sahələrində və innovasiya istiqamətlərində elmi kadr hazırlığı sahəsində birgə iştirak, Naxçıvan Dövlət Universitetinin professor-müəllim heyətinin, elmi işçilərin, magistrant və doktorantlarının AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunun müvafiq şöbələrində, elmi-tədqiqat laboratoriyalarında ixtisasartırma, elmi-tədqiqat, çöl təcrübələrinin və staj keçmələrinin təşkili, birgə elmi simpozium, seminar və konfransların keçirilməsi, beynəlxalq və yerli layihələrdə birgə iştirak və sair məsələlər öz əksini tapıb.

**Mina QASIMOVA**

*Səudiyyə Ərəbistanı Krallığının Ticarət və Sənaye naziri Tofiq Bin Fauzan Ər-Rəbiənin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin dəstəyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə mayın 15-də Bakı şəhərindəki Heydər Əliyev Mərkəzində II Azərbaycan-Səudiyyə Ərəbistanı Biznes Forumu keçirilmişdir.*

## II Azərbaycan-Səudiyyə Ərəbistanı Biznes Forumuna muxtar respublikanın nümayəndə heyəti də qatılmışdır

Forumda hər iki ölkədən rəsmi şəxslərlə yanaşı, kənd təsərrüfatı, sənaye, tikinti, maliyyə, İKT, logistika, turizm, konsaltinq, neft-kimya, səhiyyə və digər sahələrdə fəaliyyət göstərən 300-dən çox iş adamı iştirak etmişdir.

Biznes foruma Naxçıvan Muxtar Respublikasının nümayəndə heyəti də qatılmışdır.

Forumda Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin İnvestisiyaların təşviqi və ixraca dəstək şöbəsinin əməkdaşı və sahibkarlıq subyektlərindən "Dekor Qrup" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru iştirak etmişlər.

Tədbir çərçivəsində nazirliyin əməkdaşı qida məhsullarının distribusiyası ilə məşğul olan "Alrai Food Industries" və "Wafra Food Products" şirkətlərinin nümayəndələri ilə görüşmüşdür. Görüş zamanı muxtar respublikada istehsal olunan ixracyönümlü məhsullar, o cümlədən mineral sular və qida məhsulları haqqında məlumat verilmiş, qarşılıqlı ticarət əlaqələrinin yaradılması barədə müzakirələr aparılmışdır. Xarici qonaqlara muxtar respublikanın investisiya imkanları və ixrac potensialını əks etdirən kitab, kataloq və broşürlər təqdim olunmuşdur.

"Dekor Qrup" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru mebel avadanlıqlarının istehsalı ilə məşğul olan "Riyadh furniture industries" şirkətinin nümayəndəsi ilə görüşmüş və əməkdaşlıq imkanları barədə müzakirə aparılmışdır.

Biznes forum çərçivəsində hər iki ölkənin biznes və investisiya imkanlarına dair təqdimatlar edilmiş, Səudiyyə Ərəbistanından olan iş adamları arasında bir sıra ikitərəfli görüşlər keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin mətbuat xidməti***




*2015-ci ilin ölkəmizdə, həmçinin Naxçıvan Muxtar Respublikasında "Kənd təsərrüfatı ili" elan edilməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq fərman və sərəncamları ilə təsdiq olunmuş muxtar respublikanın sosial-iqtisadi inkişafına, meyvəçiliyin və tərəvəzçiliyin inkişafına, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair dövlət proqramlarında nəzərdə tutulmuş vəzifələrin daha sürətlə və keyfiyyətlə yerinə yetirilməsinə, daxili bazarın yerli istehsal məhsullarına olan tələbatının ödənilməsinə stimul olub. Həmin proqramlarda kənd təsərrüfatının inkişafı üstün istiqamət verilən sahələrdən biridir. Ona görə ki, aqrar sektorda qazanılan uğurların təməlində torpaqlardan düzgün istifadənin təmin edilməsi dayanır. Bu sırada isə bir neçə amil başlıca rol oynayır. Onlardan biri də meliorasiya və irriqasiya tədbirləridir.*

# Melioratorlar "Kənd təsərrüfatı ili"nə töhfələrini verirlər

Cari ilin may ayının 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində əkinəyararlı torpaqlardan istifadənin və əhaliyə göstərilən xidmətlərin vəziyyəti barədə keçirilən müşavirədə meliorasiya və irriqasiya sahəsində görülən işlər, müasir hidrotexniki qurğuların istifadəyə verilməsi ilə yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması və əkinəyararlı torpaqlardan səmərəli istifadəyə geniş imkanlar açılması və digər məsələlər barədə aidiyyəti təşkilatlarla yanaşı, Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinə də bir sıra tapşırıqlar verilib. Müşavirədə Ali Məclisin Sədri deyib: ***"Bu gün muxtar respublikada həyatın bütün sahələrində inkişaf meyilləri qorunub saxlanılır, iqtisadi inkişaf təmin olunur, quruculuq tədbirləri aparılır... Kənd təsərrüfatı sahəsində də tədbirlər diqqət mərkəzindədir. Muxtar respublikanın malik olduğu 550 min 275 hektar torpaq sahəsinin 164 min 269 hektarı və ya 30 faizə yaxını kənd təsərrüfatına yararlıdır. 2015-ci il 1 yanvar vəziyyətinə əkin sahələri 52 min 328 hektar təşkil edir ki, bunun da 40 min 959 hektarı və ya 78 faizi suvarılan torpaqlardır. Əkin sahələrinin 38 min 716 hektarı və ya 70 faizə yaxını xüsusi mülkiyyətdədir".***

Müşavirədə qeyd olunub ki, əkinəyararlı torpaq sahələrindən istifadənin təmin olunması üçün hər il müşavirələr keçirilir, aid qurumlar qarşısında konkret vəzifələr qoyulur. Torpaq mülkiyyətçilərinin marağını artırmaq məqsədilə dövlət tərəfindən müxtəlif stimullaşdırıcı tədbirlər görülür. Yeni suvarma kanalları və nasos stansiyaları istifadəyə verilir, əkin sahələrinin su ilə təminatı yaxşılaşdırılır. Bu tədbirlərin həyata keçirilməsində məqsəd muxtar respublika əhalisinin rifah halını daha da yaxşılaşdırmaqdan ibarətdir.

Həmin vəzifələrin icrası ilə əlaqədar 2015-ci ilin ötən dövrü ərzində görülmüş və görüləcək işlərlə bağlı suallarımıza aydınlıq gətirmək üçün Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinə müraciət etdik. Bildirdilər ki, muxtar respublikamızdakı əkinəyararlı torpaqlardan səmərəli istifadə olunması üçün yaradılmış şərait gözəçarpan göstəricilər qazanılmasına imkan verib. "Kənd təsərrüfatı ili"ndə daha yüksək nailiyyətlər əldə edilməsi üçün komitə tərəfindən tədbirlər planı hazırlanıb, ilin ötən dövrü ərzində nəzərdə tutulan işlər sistemli şəkildə davam etdirilib, əkin sahələrinin genişləndirilməsi, su anbarlarına və sututarlara suvarma suyunun yığılması, əkin altında olan sahələrdə sudan səmərəli istifadə olunmasının diqqətdə saxlanılması, subartezian quyularının, kəhrizlərin və nasos stansiyalarının bərpası, hidrotexniki qurğularda təmir-tikinti işlərinin aparılması, kollektor-drenaj şəbəkələrinin lildən təmizlənməsi, torpaqların şoranlaşmasının qarşısının alınması məqsədilə kollektor-drenaj tikintisi işlərinin həcminin genişləndirilməsi, Araz çayının sol sahili boyunca sahilbərkitmə işlərinin davam etdirilməsi diqqətdə saxlanılıb.



Öyrəndik ki, ötən dövr ərzində Arpaçay Su Anbarına 114 milyon kubmetr, Heydər Əliyev Su Anbarına 23,4 milyon kubmetr, Bənəniyar Su Anbarına 12 milyon kubmetr su yığılıb və hazırda bu iş davam etdirilir. Quruculuq tədbirləri çərçivəsində muxtar respublikada subartezian quyularının tikintisi diqqət mərkəzində saxlanılıb. Son illərdə istifadəyə verilən belə su mənbələri torpaq mülkiyyətçilərinin işini xeyli asanlaşdırıb. Müntəzəm olaraq həmin quyulara nəzarət olunur, onlardan səmərəli istifadə edilməsinə ciddi önəm verilir. Şərur rayonunun Xələc, Cəlilkənd, Tumaslı kəndlərində olan subartezian quyuları ilin ötən dövrü ərzində bərpa edilib. Dəmirçi kəndində olan subartezian quyusu balansa götürülərək işlək vəziyyətə gətirilib. Ümumilikdə, 98 nasosda, 194 subartezian quyusunda cari və əsaslı təmir işləri başa çatdırılıb. Təmir işləri kəhrizlərdə də aparılıb. Babək rayonunun Nəzərabad, Culfa rayonunun Dizə kəndləri ərazisindəki kəhrizlər bərpa olunub.

Heydər Əliyev Su Anbarının və Arpaçay Su Anbarının sağ və sol sahil kanallarında, Uzunoba gölünün sugətirici kanallarında isə təmir-tikinti işləri yekunlaşdırılıb. "Kəngərli rayonunda suvarmanın təkmilləşdirilməsi" layihəsinin başa çatdırılması bu bölgədə suvarma suyu ilə bağlı problemin aradan qaldırılmasında mühüm rol oynayıb.

Əvvəlki illərdə olduğu kimi, cari ildə də Araz çayında sahilbərkitmə işləri davam etdirilib, Şərur rayonunun Alışar kəndi ərazisində 5 kilometr məsafədə sahilbərkitmə işləri aparılıb. Hazırda bu iş davam etdirilir.

Komitədən aldığımız məlumata görə, kollektor-drenaj şəbəkələrində tikinti işlərinin davam etdirilməsi, mövcud belə obyektlərdə təmir-bərpa tədbirlərinin həyata keçirilməsi də diqqət mərkəzində saxlanılıb. İlin ötən dövrü ərzində Şərur rayonunun Xanlıqlar və Püsyan kəndlərində kollektor-drenaj şəbəkəsinin tikintisi başa çatdırılıb, hazırda bu tədbir Tumaslı kəndində və Sədərək rayonunun şoranlaşmış torpaq sahələrində həyata keçirilir.

Komitədən onu da öyrəndik ki, tədbirlər planında nəzərdə tutulmuş işlərin yerinə yetirilməsi üçün struktur təşkilatlarına hərtərəfli şərait yaradılıb, bu şəraitdən səmərəli istifadə edilməsi təmin olunub. Komitə əməkdaşları, komitənin rayonlarda fəaliyyət göstərən struktur təşkilatları torpaq mülkiyyətçiləri arasında müntəzəm olaraq maarifləndirici tədbirlər aparır, muxtar respublikada əkin altında olan sahələrə davamlı suvarma suyunun verilməsinin təmin edilməsinə və səmərəli istifadəsinə nəzarəti diqqət mərkəzində saxlayırlar.

*Görülən işlər onu deməyə əsas verir ki, muxtar respublika "Kənd təsərrüfatı ili"ni uğurlu göstəricilərlə başa vuracaq.*

**Muxtar MƏMMƏDOV**

# "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti aqrar sahənin inkişafında mühüm rol oynayır

***Kənd təsərrüfatının inkişaf etdirilməsi müasir dövrdə bütün ölkələr üçün prioritet sahələrdən sayılır. Bu sahənin inkişafı ərzaq məhsulları ilə etibarlı təminata zəmin yaradaraq strateji önəm kəsb edir.***

Naxçıvan Muxtar Respublikasında da kənd təsərrüfatının aqrar ənənələr üzərində hərtərəfli inkişafı tarixən bizə məlumdur. Buna görə də həmin ənənələrin bu gün mütərəqqi ideya və vasitələrlə davam etdirilməsi müasir Naxçıvan üçün həlli vacib məsələlərdəndir. Təbii ki, ötən müddət ərzində muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan fermerlərə hərtərəfli dövlət qayğısının göstərilməsi kənd təsərrüfatı məhsullarının həcminin artmasına imkan yaradıb. Ancaq 2015-ci ilin ölkəmizdə, eləcə də muxtar respublikamızda "Kənd təsərrüfatı ili" elan olunması bu sahənin vacibliyini bir daha ortaya qoyur. Cari ilin aprel ayının 6-da "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətində keçirilən Naxçıvan Muxtar Respublikasında "Kənd təsərrüfatı ili"ndə qarşıda duran vəzifələrlə bağlı müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***"2015-ci il ölkəmizdə, eləcə də muxtar respublikada "Kənd təsərrüfatı ili" elan olunmuşdur. Ona görə də bu il kənd təsərrüfatının inkişafına diqqət daha da artırılacaq, bu sahədə ciddi dönüşə nail olunacaqdır. Hazırda ölkəmizdə kənd təsərrüfatının inkişafı istiqamətində ardıcıl tədbirlər görülür. Əvvəllər kənd təsərrüfatı texnikaları torpaq mülkiyyətçilərinə və fermerlərə 10 il müddətinə lizinqə verilir, mineral gübrələr isə 50 faiz güzəştlə satılırdı. Lakin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin kənd təsərrüfatının***



***inkişafının stimullaşdırılması məqsədilə imzaladığı 2014-cü il 16 aprel tarixli Fərmanına əsasən, kənd təsərrüfatı texnikaları lizinqə verilərkən dəyərinin 20 faizi ödənildikdə dövlət büdcəsi hesabına onların ilkin dəyərinin 40 faizi həcmində güzəşt tətbiq edilməsi, eləcə də mineral gübrələrin 70 faiz güzəştlə satışının həyata keçirilməsi qərara alınmışdır. Qəbul edilən bu qərarlar yerlərdə aqrolizinq xidmətləri tərəfindən həyata keçirilir. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti 2005-ci ilin yanvar ayından fəaliyyət göstərir. Ötən dövrdə cəmiyyətin muxtar respublikanın rayonlarında bazaları yaradılaraq lazımi texnika və avadanlıqlarla təchiz olunmuş, kollektiv üzərinə düşən vəzifələri yerinə yetirmişdir".***

"Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti muxtar respublikada kənd təsərrüfatının inkişafında mühüm rol oynayır. Yuxarıda da deyildiyi kimi, cəmiyyət 2005-ci ildən fəaliyyət göstərir. Bu qurumun əsas vəzifəsi regionda kənd təsərrüfatı texnikası çatışmazlığının aradan qaldırılmasını, fermerlərə güzəştli şərtlərlə texnika və avadanlıqların lizinq yolu ilə verilməsini, habelə mineral gübrələrin, damazlıq mal-qaranın, məhsuldar toxum sortlarının alınaraq uyğun qiymətlərlə sahibkarlara satışını təşkil etməkdən ibarətdir. Ötən müddətdə bu sahədə mühüm irəliləyişlərə nail olunmuş, fermerlər göstərilən dövlət qayğısından yararlana bilmişlər. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin ötən 10 il ərzində fəaliyyətinə nəzər salsaq görərik ki, əgər 2006-cı ildə muxtar respublikaya 82 ədəd kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqları gətirilmişdirsə, 2007-ci ildə gətirilən texnikaların sayı 180 ədəd təşkil etmiş və hər il onların sayı artırılaraq 2015-ci ildə, ümumilikdə, 1595 ədədə çatdırılmışdır. Bu texnika və texnoloji avadanlıqların ardıcıl olaraq hər il fermerlərə güzəştli şərtlərlə satışı təşkil edilmiş, onlardan 1177 ədədi lizinq yolu ilə, 85 ədədi isə nağd və köçürmə yolu ilə hüquqi və fiziki şəxslərə satılmışdır. Vurğulamaq lazımdır ki, ötən dövrdə cəmiyyətin rayon bazaları da yaradılmış və bu bazalarda inzibati binalar, anbar, texniki park və təmir sexləri tikilib istifadəyə verilmiş, maddi-texniki baza gücləndirilmiş, gətirilmiş texnika və texnoloji avadanlıqların əkin sahələrinə uyğun bölgüsü aparılmışdır. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətindən verilən məlumata görə, indiyədək gətirilmiş kənd təsərrüfatı texnikaları və texnoloji avadanlıqlarından 36 ədədi Şərur bazasına, 31 ədədi Babək bazasına, 27 ədədi Culfa bazasına, 17 ədədi Kəngərli bazasına, hər birinə 12 ədəd olmaqla Sədərək və Ordubad bazalarına, 14 ədədi isə Şahbuz bazasına verilməklə, ümumilikdə, 149 ədədi rayon bazalarına göndərilmişdir. Qeyd edək ki, lizinq yolu ilə satılan texnikaların ehtiyat hissələrinin alınması da cəmiyyət tərəfindən diqqət mərkəzində saxlanılır. Hazırda ehtiyat hissələri anbarlarında müxtəlif kənd təsərrüfatı texnikalarının ehtiyat hissələri vardır. Məhz torpaq mülkiyyətçilərinin əlindən tutan bu cür müasir texnika və avadanlıqlar əkin sahələrində mütərəqqi aqrotexniki qaydaların tətbiqinə imkan verir.

Torpaq mülkiyyətçilərinə mühüm dəstəklərdən biri də əkin sahələrinin mineral gübrələrə olan ehtiyacının ödənilməsidir. Artıq ötən ildən başlayaraq ölkə başçısının fərmanı ilə mineral gübrələrin fermerlərə 70 faiz güzəştlə satışı təmin olunmuşdur. Muxtar respublikamızda da əkinçiliklə məşğul olan torpaq mülkiyyətçiləri bu imkanlardan lazımınca yararlana bilirlər. Qeyd edək ki, 2015-ci ilin aprel ayınadək "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin gübrə anbarlarına 6 min 100 tona yaxın azot gübrəsi tədarük olunmuşdur. Yaradılmış şərait muxtar respublikada yeni torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsinə, meliorativ tədbirlərin həcminin genişləndirilməsinə, yeni fermer təsərrüfatlarının və kənd təsərrüfatı təmayüllü istehsal müəssisələrinin yaradılmasına imkan verir.

Muxtar respublikada heyvandarlığın inkişaf etdirilməsi yönündə atılan addımlar heyvandarlıq məhsullarının ildən-ilə artırılmasına şərait yaradır. Xüsusilə xarici ölkələrdən cins mal-qaranın alınıb gətirilərək güzəştli şərtlərlə sahibkarlara satılması bu sahənin inkişaf etdirilməsini stimullaşdırır. Məlumat üçün deyək ki, cəmiyyət tərəfindən 2009-2015-ci illərdə 1810 baş damazlıq cins mal-qara gətirilmiş və fermerlərə uyğun şərtlərlə satılmışdır. Həyata keçirilən bu tədbirlər iribuynuzlu heyvanların cins tərkibinin yaxşılaşdırılmasında əhəmiyyətli rol oynamışdır ki, bu da ət və süd istehsalının ilbəil artmasına öz təsirini göstərmişdir.

Vurğulamaq lazımdır ki, əhalisinin 70 faizdən çoxunun kəndlərdə məskunlaşdığı muxtar respublikamız zəngin kənd təsərrüfatı ənənələrinə malikdir. Bu ənənələri uğurla və mütərəqqi vasitələrlə davam etdirmək üçün bu gün münbit şərait mövcuddur. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin fermerlərə dəstəyi isə aqrar sahədə mühüm nəticələr əldə etməyə yeni imkanlar açır. İnanırıq ki, fermerlərimiz bu imkanlardan səmərəli istifadə edərək "Kənd təsərrüfatı ili"nin üstünlüklərindən yararlana biləcəklər.

**Səbuhi HƏSƏNOV**

***Müəllim, məktəb, cəmiyyət. Bu üç məfhumu bir-birindən ayrı təsəvvür etmək mümkün deyil. Dünən də, bu gün də müəllim başlıca sima olub, məktəb cəhalət dərdinin dərmanı funksiyasını yerinə yetirib. O ölkələrdə müəllim əməyi qiymətləndirilirsə, təhsilin inkişafına qayğı göstərilirsə, orada inkişaf və tərəqqi vardır. Bu gün qürur hissi ilə deyə bilərik ki, ölkəmizdə, eləcə də muxtar respublikamızda təhsilin inkişafı üstün istiqamət verilən başlıca sahələrdən biridir. “Ziyalı sözü” rubrikasında bu mövzu ilə bağlı suallarımızı Şərur rayonunun Aşağı Yaycı kənd tam orta məktəbinin direktoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Yeganə Məmmədova cavablandırır.***

*Ziyalı sözü*

# Təhsilimizə qayğı gələcəyimizə göstərilən qayğıdır



***– İnkişaf etmiş ölkələrdə həyatın hər sahəsində qazanılan nailiyyət və uğur həmin ölkənin təhsilinin hansı səviyyədə qurulması ilə bağlıdır. Bu baxımdan ölkəmizdə təhsil sahəsinin inkişafını necə xarakterizə etmək olar?***

– Bu gün biz təhsilin keyfiyyətinin inkişaf etmiş ölkələrin səviyyəsinə çatdırılması üçün görülən işlər və qazanılan uğurlarımızla, təhsil sahəsində beynəlxalq proqram və layihələrdə iştirakımızla haqlı olaraq fəxr edirik. Bütün bunlar, şübhəsiz ki, ulu öndərimizin siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyevin təhsilə, təhsil işçilərinə diqqət və qayğısı, səmərəli fəaliyyət üçün yaratdığı əlverişli şərait və imkanlar sayəsində mümkün olmuşdur. “Təhsil haqqında”Azərbaycan Respublikası Qanununun qəbul olunması, təhsil sistemində islahatların yeni müstəvidə aparılması, mütərəqqi texnologiyaların tətbiqi, müəllimlərin əməkhaqlarının müntəzəm olaraq artırılması, onların pedaqoji biliyinin yüksəldilməsi üçün həyata keçirilən tədbirlər bu sahənin inkişaf etmiş dünya ölkələrinin səviyyəsinə yüksəlməsinə imkan vermişdir. Son illərdə təhsilin inkişafına xidmət edən fərman və sərəncamların imzalanması, dövlət proqramlarının təsdiq edilməsi və həyata keçirilməsi ölkə rəhbərinin bu sahəyə böyük həssaslıqla, diqqətlə yanaşdığının əyani ifadəsidir.

***– Muxtar respublikamızda təhsil sahəsi böyük diqqət və qayğı ilə əhatə olunmuşdur. Yeni məktəb binalarının tikintisi xüsusilə diqqəti çəkir. Müasir texnologiyalardan istifadə etmək baxımından muxtar respublikanın təhsil sistemi digər regionlara örnək kimi göstərilir. Bu barədə nə deyə bilərsiniz?***

– Muxtar respublikamızda bu istiqamətdə görülən işlər, həyata keçirilən təqdirəlayiq tədbirlər hər birimizi sevindirir. Təhsil müəssisələri üçün müasir tələblər səviyyəsində inşa olunan binalar bu sahənin inkişafına yeni üfüqlər açır. Sevindiricidir ki, məktəb tikintisi təkcə Naxçıvan şəhəri və ya rayon mərkəzlərini deyil, ən ucqar dağ və sərhəd kəndlərini də əhatə edir. Bu da gələcəyimizə davamlı qayğının ifadəsidir ki, məktəblərin hər birində müasir texniki avadanlıqların quraşdırılması, kitabxanalar, idman zalları, fənn kabinələri, laboratoriyalar yaradılması, kompüter dəstlərinin, elektron lövhələrin müəllim və şagirdlərin ixtiyarına verilməsi tədrisin səviyyəsinin yüksəldilməsinə müsbət təsirini göstərir. Təbii ki, yaradılan belə şərait və göstərilən dövlət qayğısı biz müəllimlərdən böyük məsuliyyət tələb edir. Yaxşı hal kimi onu da demək lazımdır ki, Naxçıvanda çalışan çoxsaylı müəllim kollektivləri bu həqiqəti dərindən dərk edirlər. Ona görə də müəllimlər bugünkü şagirdlərin savadlı və vətənpərvər yetişməsi üçün səy və bacarıqlarını əsirgəmirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: *“Müəllimlər gələcəyimiz olan gənclərin təhsil almasında, tərbiyə olunmasında xüsusi rol oynayır. Gələcəyimizin təməli müəllimlər tərəfindən qoyulur. Bu təməl nə qədər möhkəm qoyulsa, gələcəyimiz bir o qədər möhkəm qurulacaq, uğurlu olacaqdır. Müəllimlərimiz bütün vasitələrdən istifadə edərək gələcəyimizin təməlinin möhkəm qoyulması üçün çalışmalıdırlar”.*

***– Yeganə xanım, söz müəllimlikdən düşmüşkən bir az da bu müqəddəs peşənin gələcəyimizin qurulmasındakı rolundan danışaq. Neçə illərdir, ömrünüzü bu şərəfli peşəyə, gənc nəslin təlim-tərbiyəsinə həsr etmisiniz. Sizcə, cəmiyyətin inkişafında müəllim necə rol oynayır və o, hansı keyfiyyətləri ilə seçilməli, örnək olmalıdır?***

– Xalqımız hər zaman müəllimə ucalıq, ziyalılıq və mənəvi saflıq rəmzi kimi baxmış, bu sənət sahiblərinə böyük hörmət və yüksək ehtiram göstərmişdir. Tutduğu vəzifəsindən asılı olmayaraq, hər bir insan cəmiyyətdəki mövqeyinə, şəxsiyyət kimi formalaşmasına, qazandığı biliklərə görə özünü məhz müəllimlərinə borclu sayır. *“Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram”*, – deyən ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə müəllim əməyini yüksək qiymətləndirmiş, diqqət və qayğısını onlardan əsirgəməmişdir. Çünki onlar insanı kamillik zirvəsinə qaldırmaq kimi böyük bir vəzifəni – gənclərin təhsili, təlim-tərbiyəsi, cəmiyyət və dövlət üçün yararlı vətəndaş kimi yetişdirilməsi missiyasını yerinə yetirirlər. Ona görə də əsl müəllim bilik və bacarığını dövlətin və xalqın sabahı naminə ərməğan etməyi, şagirdlərin vətənpərvər, intellektli gənclər kimi formalaşması üçün səylə çalışmağı özünün vətəndaşlıq borcu sayan müəllimdir. Müdriklərin belə bir sözü yadıma düşür: “Hər bir millətin mədəni tərəqqisi təhsillə, təhsilin tərəqqisi isə müəllimlərlə bağlıdır”. Bu baxımdan yanaşaraq qeyd etməliyəm ki, orta məktəb təkcə bilik, savad verməməlidir. Əvvəldə də dediyim kimi, məktəb, müəllim qarşısında duran ən böyük vəzifə əsl vətəndaş tərbiyə etməkdir. Əsl müəllim həmişə əsl insan, yaxşı şagird yetişdirməyə çalışır. Aqillər deyiblər ki, uşaq beyni ağ vərəqə bənzəyir. Oraya nə yazılsa, əbədi qalar. Demək sağlam fikirli, aydın düşüncəli, cəmiyyət üçün gərəkli övladlar böyütmək üçün o ağ vərəqə xeyirxahlıq, vətənpərvərlik, saflıq, səmimiyyət bildirən hissləri hopdurmalıyıq. Bu gün təmiz beyinlərə elə toxum səpməliyik ki, sabah özümüz utanmayaq. Bütün bunları öyrənmək üçün bir məkan – məktəb, öyrətmək üçün isə bir insan var – müəllim. Çünki müəllim tərbiyə verən, öyrədən, eyni zamanda öyrənəndir. Bu da bir həqiqətdir ki, təhsilin hərtərəfli yüksəlişində, təlim-tərbiyə prosesində qarşıda duran vəzifələrin uğurla həyata keçirilməsində təkcə məktəbin, təhsil ocağında çalışan pedaqoji heyətin əməyi kifayət deyil. Uşaqların gələcəyin savadlı mütəxəssisi, layiqli vətəndaşı kimi formalaşması üçün bütün cəmiyyət maraqlı olmalıdır, xüsusən də məktəblə ailənin birgə fəaliyyəti təmin edilməlidir. *“Özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır”*, – deyən dahi rəhbərimizin müdrik tövsiyəsi belədir ki, əsl pedaqoq olmaq, şagirdlərə hərtərəfli bilik vermək, onları nəcib mənəvi amallara sədaqət ruhunda yetişdirmək üçün müəllimin özü bu yüksək keyfiyyətləri dərindən mənimsəməli, yetirmələrinə nümunə olmalıdır. Belə müəllimlərimiz çoxdur və onların əməyi ölkəmizdə, o cümlədən muxtar respublikamızda hər zaman yüksək qiymətləndirilir, öz fəaliyyəti ilə nümunə olan müəllimlər fəxri adlarla, orden və medallarla təltif olunurlar.

***– Təbii ki, sadaladığınız keyfiyyətlərdə müəllimlərin olması, yaradılan şərait, əldə edilən uğurlar muxtar respublikamızda təhsilin gələcək inkişafına daha nikbin baxmağa imkan verir.***

– Muxtar respublikada təhsilin inkişafını bütün istiqamətləri ilə xarakterizə etmək üçün 20 il bundan əvvəli yadımıza salaq. İlk növbədə məktəb tikintisindən başlayaq. Statistik göstəricilərə nəzər salsaq görərik ki, son 20 il ərzində muxtar respublikada 40 min 182 şagird yerlik 129 ümumtəhsil məktəbi tikilmiş, 34 min 24 şagird yerlik 52 ümumtəhsil məktəbi, eləcə də 19 məktəbəqədər təhsil müəssisəsi, 23 uşaq musiqi və bədii sənətkarlıq məktəbi və 3 orta ixtisas təhsili müəssisəsi yenidən qurulmuş və ya əsaslı təmir olunmuşdur.Təhsil ocaqlarının müasir informasiya texnologiyaları, kompüter və elektron lövhələrlə təmin edilməsinə ciddi önəm verilmiş, ucqar dağ və sərhəd kəndləri belə, müasir texniki-təlim vasitələri ilə təchiz edilmişdir. Bunlar heç də kiçik rəqəmlər deyil. Təhsil sahəsinə diqqət və qayğı bu sahənin keyfiyyət göstəricilərinə də öz müsbət təsirini göstərməkdədir. Ali məktəblərə qəbul imtahanlarında 500-700 intervalında yüksək bal toplayanların sayı ildən-ilə daha da artır. Bundan başqa, Ali Məclis Sədrinin hər il yüksək bal toplayan gənclərlə ənənəvi hal alan görüşü də bu uğurlara bir stimul olub. Sevinirik ki, təhsilə göstərilən qayğı gənclərimizin xarici ölkələrdə təhsil almalarına da geniş imkanlar açıb. Artıq bizim gənclərin səsi dünyanın inkişaf etmiş ölkələrinin universitetlərindən gəlir.

Bu gün muxtar respublikamızda ənənəvi təhsil müəssisələri, metodları tamamilə yeniləşmə prosesindədir. Elə distant təhsil sistemini götürək. Bu təhsil sistemi müxtəlif məsafələrdə olan təhsil müəssisələri arasında informasiya mübadiləsinin operativ və səmərəli təşkilinə imkan vermişdir. Şagirdlər videobağlantı vasitəsilə keçilən dərsləri dinləmək və müəllimlərlə birbaşa əlaqə saxlamaq imkanına malikdirlər. Bunun nəticəsidir ki, bu gün Ordubad rayonunun ucqar dağ kəndi Nürgütdə, Bistdə, Şahbuz rayonunun Gömür, Biçənək, Şərur rayonunun Axura, Şahbulaq, Culfa rayonunun Şurud, Ləkətağ məktəblərinin şagirdləri oxuduqları sinifdə oturub Naxçıvan şəhərində fəaliyyət göstərən muzeylərlə tanış olmaq, belə mədəniyyət müəssisələrində təşkil edilən tədbirlərdə, açıq dərslərdə, bir növ, iştirak etmək imkanı qazanmışlar. Blokada şəraitində yaşayan bir diyarda bu sistemin tətbiqi heç də asan məsələ deyil. İkinci bir yenilik də ondan ibarətdir ki, tədris prosesində interaktiv lövhənin imkanları genişləndirilmişdir. Bu lövhələr elektron dərsliklərdən və digər multimedia tədris avadanlıqlarından istifadəyə şərait yaratmışdır. Bu da şagirdlərin daha çox biliklərə yiyələnməsi və dünyagörüşlərinin formalaşması baxımından mühüm əhəmiyyət daşıyır. Muxtar respublikada məhdud fiziki imkanlı uşaqların təhsilə cəlbi istiqamətində görülən işlər, qəbul edilən dövlət proqramı bu qəbildən olan insanlar üçün bir həyat işığıdır. Belə uşaqlar arasında qabiliyyətli, savadlı uşaqlar, mən deyərdim ki, heç də az deyil. Təbii ki, sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyasının gücləndirilməsi və onların cəmiyyətə inteqrasiyasında distant təhsilin mühüm rolu var. Bu günlərdə digər bir təhsil müəssisəsinin yaradılması da ürəyimizcə oldu. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı sərəncamla fəaliyyətə başlayacaq Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey bu fənlərə maraq göstərən şagirdlərin gələcəkdə savadlı mütəxəssis kimi yetişməsində mühüm əhəmiyyət kəsb edəcək, dəqiq elmlərə marağı daha da artıracaqdır. Bütün bunlar bir daha əmin olmağa əsas verir ki, müasir Azərbaycan təhsili özünün zəngin ənənələrinə, milli-mənəvi dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq daha da inkişaf edəcək. Çünki müasir həyat daha çox bilik və təcrübə tələb edir. Ona görə də arzu edirəm ki, gənclərimiz təhsil almaqla yanaşı, həm də seçdikləri sahə üzrə yaxşı mütəxəssis kimi yetişib, ölkəmizin rifahı üçün çalışaraq müstəqil dövlətimizə layiq vətəndaş olsunlar.

***– Sonda belə bir sual vermək istərdim. Siz həm də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatısınız, ictimai işlərdə fəalsınız. Bu gün qadınların ictimai-siyasi həyatda fəallığını necə dəyərləndirərdiniz?***

– Bu gün Azərbaycan qadını tək ailə ocağının deyil, həm də cəmiyyətin ağırlıqlarını çiynində daşıyan qadındır. Ömrü boyu qadına böyük hörmət, dərin ehtiram bəsləyən ümummilli liderimiz Heydər Əliyev cəmiyyətdə qadının rolunun artmasına daim diqqətlə yanaşmışdır. Hər zaman qadına, anaya böyük ehtiram göstərmiş, onların əməyinə yüksək qiymət vermiş ulu öndərimizin dövlət qadın siyasəti haqqında imzaladığı fərmanlar bizim üçün geniş imkanlar açıb. Bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda dövlət qadın siyasəti uğurla həyata keçirilir, qadın hüquqları qorunur, onların problemlərinin həlli istiqamətində dövlət səviyyəsində addımlar atılır, qadınlarımız yüksək vəzifələrə irəli çəkilirlər. Təbii ki, bu qayğı bir ana, bir qadın, ziyalı kimi məni də çox sevindirir. Azərbaycan qadını ona layiq olduğu dəyəri verdiyi üçün dövlətimizə həmişə minnətdar olacaq.

**Müsahibəni apardı**
**Məhəbbət MİRZƏYEVA**



# Ana dilimizin aktual problemləri mövzusunda elmi konfrans

*“Naxçıvan” Universitetində “Ana dilimizin aktual problemləri” mövzusunda elmi konfrans keçirilib. Konfransı ali təhsil ocağının tədris işləri üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent İbrahim Kazımbəyli açaraq keçirilən tədbirin məqsəd və mahiyyətindən danışıb.*

Konfransda Azərbaycan dili və ədəbiyyat kafedrasının müəllimləri professor Sədaqət Həsənovanın “Azərbaycan dilçiliyinin dialektologiya ilə bağlı problemləri”, Mədəd Səfərovun “Doğma dilimiz milli dəyərlərimizin özülüdür”, dosent Qənirə Əsgərovanın “Dilimizin orfoqrafik problemləri” və Nur Yaqubovun “Azərbaycan ədəbi dilinin qorunmasında telekanalların rolu və televiziya aparıcılarının dili” mövzularında çıxışları olub. Çıxışlarda dilimizin aktual problemlərindən bəhs edilib. Bildirilib ki, Azərbaycan dilinin tətbiqində yanlışlıqlar, əcnəbi dillərə üstünlük verilməsi kimi zərərli vərdişlər davam etməkdədir. Bəzi hallarda elmi konfranslarda, mədəni-kütləvi tədbirlərdə, kütləvi informasiya vasitələrində, eləcə də elmi məqalələrdə Azərbaycan dilinin üslub və qrammatik qaydalarına riayət olunmadığının şahidi oluruq.

Vurğulanıb ki, ana dili bizim milli sərvətimizdir. Dövlət dilinin qorunması dövlət sərhədinin qorunması qədər vacib məsələdir və ümummilli vəzifə kimi dərk olunmalıdır. Ana dili bizim mənəvi kimliyimiz və ən böyük milli dəyərlərimizdən biridir. Bəzilərinin öz ana dilini mükəmməl bilməmələri adamda həm ikrah, həm də təəssüf hissi doğurur. Çünki doğma ana dilini mükəmməl bilmək, bu dildə qrammatik qaydalara tam uyğun yazmaq və danışmaq hər kəsin vətəndaşlıq borcudur. Hər bir insan kimliyindən, hansı vəzifəni daşımasından asılı olmayaraq, ana dilini mükəmməl bilməlidir, onun qanun-qaydalarına riayət etməyə borcludur. Unutmayaq ki, dilimizin qorunması ilə bağlı yalnız dövlətin gördüyü işlərlə kifayətlənmək olmaz. Bu vəzifəni hər bir vətəndaş yerinə yetirməlidir.

Sonda tədbir iştirakçıları mövzu ilə bağlı slayda baxıblar.

**Xəbərlər şöbəsi**

## Düzəliş

“Şərq qapısı” qəzetinin 2015-ci il 22 may tarixli nömrəsində dərc olunmuş “Naxçıvan Dövlət Universitetinin xəstəxanası və Baytarlıq təbabəti ixtisası üçün yeni bina istifadəyə verilmişdir” sərlövhəli rəsmi materialda qəzetin baş redaktor müavini Səyyar Məmmədov tərəfindən əsassız və razılaşdırılmamış düzəliş aparılmış, “baytarlıq təbabəti” ifadəsi dırnaq işarəsi içərisində verilmişdir. Ciddi səhvə görə oxuculardan üzr istəyir və bildiririk ki, qəzetin baş redaktor müavini Səyyar Məmmədov tutduğu vəzifədən azad edilmişdir.

# Naxçıvan şəhərindəki “Təbriz” mehmanxanası

dünən



bu gün



## Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında təlim keçirilib

*May ayının 21-22-də Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi Naxçıvan Tibb Kolleci ilə birlikdə “Fövqəladə halların tibbi-sanitar nəticələrinin aradan qaldırılması zamanı mülki müdafiə orqan və qüvvələrinin idarə olunmasının təşkili” mövzusunda taktiki xüsusi təlim keçirib.*





Təlimin keçirilməsində məqsəd Naxçıvan Tibb Kollecində yaradılmış sanitar heyətlərin və digər obyekt mülki müdafiə qüvvələrinin təchizatını və hazırlığını yoxlamaq, onların köməyi ilə zədələnmə (zəhərlənmə) və təbii fəlakət ocaqlarında ilk tibbi yardımın göstərilməsi bacarığını təkmilləşdirmək, kombinə edilmiş zədələnmə ocağında ilk tibbi yardımın göstərilməsi üzrə sanitar heyətlərin fəaliyyətini izləmək, kollecin inzibati binasında yanğın və digər fövqəladə hadisələr zamanı müəllim-tələbə heyətinə düzgün davranış və fəaliyyət qaydalarını öyrətmək, eləcə də muxtar respublika ərazisində ehtimal olunan radioaktiv, kimyəvi zəhərlənmələr zamanı müəllim-tələbə heyətinin mühafizəsi tədbirlərinin həyata keçirilməsini praktik olaraq məşq etdirmək olub.

Tədbiri Naxçıvan Tibb Kollecinin direktoru İlhamə Mustafayeva açaraq praktik təlimlərə hazırlıqla bağlı görülən işlərdən, kollecdə mülki müdafiə işinin təşkili üzrə yaradılan qüvvələr və onların hazırlıq səviyyəsi, eləcə də təminat və təchizat məsələlərindən danışıb.

Naxçıvan Muxtar Respublikası Səhiyyə nazirinin müavini Sona Məmmədova fövqəladə halların tibbi-sanitar nəticələrinin aradan qaldırılmasında Səhiyyə və Fövqəladə Hallar nazirlikləri tərəfindən müvafiq təlimatların hazırlandığını bildirib, keçirilən təlimin əhəmiyyətindən danışıb. Qeyd olunub ki, muxtar respublika ərazisində baş verə biləcək təbii fəlakətlər və texnogen qəzalar zamanı zərərçəkmiş əhalinin təhlükəsizliyinin təmin edilməsi, onlara ilk tibbi yardımın və həkiməqədərki yardımın, həmçinin ixtisaslaşdırılmış tibbi yardımın göstərilməsi prioritet məsələlərdən biri olduğundan bu sahəyə böyük önəm verilir.

Naxçıvan Muxtar Respublikası Təhsil nazirinin müavini Məmməd Qəribov ümumtəhsil məktəblərində Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı ilə müxtəlif tədbirlərin keçirilməsindən, həmçinin fövqəladə hallara hazırlıq sahəsində ümumtəhsil məktəblərinin üzərinə düşən vəzifələrdən danışıb.

Təlimin rəhbəri, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili şöbəsinin rəisi, polkovnik Emin Qasımov təlimin mövzusunu, məqsədlərini və tədris suallarını açıqlayıb, təlimin əhəmiyyətini, sanitar heyətlərin hazırlığına qoyulan tələbləri tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Təlimin qərargah rəisi, baş leytenant Şərif Əsədov təlimin keçirilmə qaydasını, fövqəladə hallar zamanı kollec rəhbərliyinin və qüvvələrin komandir-rəis heyətinin fəaliyyətə hazırlığının yüksək səviyyədə olmasının zəruriliyini vurğulayıb.

Təlimin keçirilmə planına uyğun olaraq, birinci mərhələdə Tibb Kollecində yaradılmış sanitar heyətlərin və digər obyekt mülki müdafiə qüvvələrinin təchizatı və hazırlığı, sonra isə “Radiasiya təhlükəsi” siqnalı ilə kollecin daimi heyətinin və tələbələrinin əməli fəaliyyəti yoxlanılıb.

Növbəti mərhələdə Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında Tibb Kollecinin sanitar heyətlərinin yarışı təşkil edilib, xilasedicilərin və sanitar heyətlərin iştirakı ilə zədələnmə (zəhərlənmə) və təbii fəlakət ocaqlarında axtarış-xilasetmə işlərinin aparılması, zədələnmişlərə ilk tibbi və həkiməqədərki yardımın göstərilməsi, zərərçəkənlərin yerləşdirilməsi və onların zəruri tələbatlarının ödənilməsi üzrə taktiki-xüsusi təlimlər keçirilib, şəxsi heyətin əməli vərdişləri və fövqəladə hallar zamanı uzlaşmış fəaliyyəti təkmilləşdirilib.

Təlimin üçüncü mərhələsində isə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayının və Xüsusi Riskli Xilasetmə Xidmətinin xilasedicilərinin maneələr zolağının dəf olunması, ərazilərin minalardan təmizlənməsi, yüksəkmərtəbəli binalarda xilasetmə işlərinin aparılması, radioaktiv, kimyəvi zədələnmə ocaqlarında sanitar təmizlənmə, dezaktivasiya, deqazasiya işlərinin aparılması üzrə göstərici məşğələləri tələbələrə təqdim edilib, fövqəladə halların nəticələrinin aradan qaldırılmasında istifadə olunan müasir radiasiya-kimya kəşfiyyat cihazları, fərdi mühafizə vasitələri, yanğınsöndürmə və sularda xilasetmə vasitələri nümayiş etdirilib.

**Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti**

## “Şərur” ədəbi birliyinin 45 illiyi qeyd olunub

*Şərur şəhərindəki “Bahar” kinoteatrından rayon İcra Hakimiyyəti və Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin təşkilatçılığı ilə “Şərurun səsi” qəzetinin nəzdində fəaliyyət göstərən “Şərur” ədəbi birliyinin 45 illiyinə həsr olunmuş tədbir keçirilib.*



Tədbiri rayon İcra Hakimiyyəti başçısının müavini Zəhra Bayramova açıb.

Birliyin rəhbəri İbrahim Yusifoğlu birliyin yaranma tarixindən və fəaliyyətindən danışıb.

Bildirilib ki, ədəbi birlik 1970-ci ildə bir qrup yaradıcı ziyalının müraciətindən sonra təsis olunub və tanınmış pedaqoq Altay Tağızadə ədəbi birliyə rəhbər seçilib. Az vaxt ərzində birlik ədəbi yaradıcılığa maraq göstərən insanları öz ətrafında birləşdirib.

Bu gün iftixar hissi ilə qeyd olunmalıdır ki, Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Muxtar Kazımoğlu, filologiya elmləri doktorları Kamran Əliyev, Vəli Nəbioğlu, Akif İmanlı, müxtəlif elm sahələri üzrə fəlsəfə doktorları Sona Vəliyeva, Vaqif Məmmədov, Seyfəddin Eyvazov, Vahid Rzayev, Həsənəli Eyvazlı, şair və yazıçılardan Asim Yadigar, Əhməd Sədərəkli, Telman Qəhrəmanov, Hüseyn Əsgərov, Budaq Təhməz, Kəmaləddin Qədim, Kəmalə Nəsrin, İnqilab Orxan, Rafiq Oday, Allahverdi Aqil… və onlarca digər qələm sahibləri “Şərur” ədəbi birliyinin yetirmələridir. Ədəbi birlik üzvlərinin 30 nəfərdən çoxu Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvüdür, onların qələmə aldıqları üç yüzdən artıq kitab nəşr olunub. Ədəbi toplularda, “Ulduz” və “Azərbaycan” jurnallarında, Naxçıvan Muxtar Respublikasında yazıb-yaradan qələm sahiblərinin əsərlərindən ibarət “Araz” almanaxlarında, “Dünyanın bəzəyi”, “Dostluq töhfəsi”, “Uşaqlar və Günəş”, “Təmsillər”, “Hekayələr”, “Poemalar və pyeslər” adlı kitablarda “Şərur” ədəbi birliyinin məşğələlərində oxunan və bəyənilən bədii əsərlər dərc edilib. İkicildlik “İlhamla çağlayır “Şərur” bu gün də” və ədəbi birliyin 35 illiyinə həsr edilmiş “Yaşadığın yaşa dəyər” adlı almanaxlar da oxucu marağını çəkən çap nümunələrindəndir.

Qeyd olunub ki, səksəninci illərin axırlarından başlayan hadisələr birlik üzvlərinin uzun illər müraciət etdikləri mövzuların səmtini dəyişdi, xain qonşuların vəhşiliyinə qarşı onların qələmi süngüyə çevrildi. Əhməd Sədərəklinin “Haray”, Vaqif Məmmədovun “Danışır torpaq”, Kamran Əliyevin “Sədərək döyüşləri”, İbrahim Yusifoğlunun “Mənim inamımı güllələdilər”, “Ölümü Tanrıdan gələnlər”, “O günü göylərdən kədər yağırdı” adlı kitabları ərsəyə gəldi.

Tədbirdə vurğulanıb ki, artıq iyirmi ildir, Şərurda yaşayan şairlərin yaradıcılığında qurub-yaradan insanlara rəğbət, ana Vətənin tərənnümü, lirik duyğular geniş yer tutur, respublikamızda, onun ayrılmaz hissəsi olan Naxçıvanda aparılan geniş quruculuq işləri və sosial-iqtisadi inkişaf ədəbi birlik üzvlərinin əsərlərində ətraflı tərənnüm olunur.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar, şair-dramaturq Həsənəli Eyvazlı, yazıçı-publisist Hüseyn Əsgərov, şair Elxan Yurdoğlu, filologiya üzrə fəlsəfə doktoru, yazıçı-tərcüməçi Şamil Zaman, “Şərurun səsi” qəzetinin redaktoru Elman Məmmədov “Şərur” ədəbi birliyi ilə bağlı xatirələrini danışaraq birliyin üzvlərini əlamətdar gün münasibətilə təbrik edib və onlara yeni yaradıcılıq uğurları arzulayıblar.

Ədəbi birliyin üzvlərindən İlyas Fərəməzoğlu, Sürəyya Nəsib, Qurban Məhərrəmoğlu, Püstə Gülsevən, Siyafər Xələcli, Qafar Alışarlı, Mehman Cəfərzadə və başqaları yeni şeirlərini oxuyublar.

**Xəbərlər şöbəsi**

### *İtmişdir*

Kəngərli rayonunun Qabıllı kənd sakini Əliyev Afayət İsa oğlunun adına 11.03.2011-ci il tarixdə verilmiş 0012424 seriya nömrəli hərbi bilet itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Vaqif küçəsi, döngə 4, ev 5-də yaşayan Əmirova Məhbubə Məsud qızının adına olan 4400 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Xətai məhəlləsi, döngə 10, ev 14-də yaşamış Rəhimov Əbülfəz Hüseyn oğlunun adına olan 15405 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 407